UOT 78.03
https://doi.org/10.59849/2311-8482.2024.3.233

**İRADƏ KƏRİMOVA***

# MAESTRO NİYAZİ

*Məqalədə XX əsr Azərbaycan musiqisinə ümumdünya şöhrəti qazandırmış görkəmli simalardan biri, istedadlı bəstəkar, dirijor, ictimai xadim Niyazinin dirijorluq fəaliyyəti şərh edilmişdir.*

*Geniş şöhrət qazanan bu görkəmli sənətkarın adı yalnız bizim ölkədə deyil, həmçinin ölkəmizin hüdudlarından uzaqlara yayılmışdır. Niyazinin musiqi aləmində rolu ilk növbədə dirijorluq fəaliyyəti ilə həmçinin çoxşaxəli bəstəkarlıq yaradıcılığı ilə də milli musiqimizin inkişafında əhəmiyyətli rol oynayır.*

***Açar sözlər:*** *Təfsirçi, dirijor, simfonik musiqi*

## Giriş

Maestro Niyazi... Bu ad özünün çox böyük istedadı ilə fərqlənən, yorulmadan, fədakarcasına çalışan sənətkara məxsusdur.

«Azərbaycan musiqisinə ümümdünya şöhrəti qazandıran musiqiçilərdən biri də istedadlı dirijor və bəstəkar Niyazidir». Görkəmli sovet bəstəkarı D.Şostakoviçin cəsarətlə söylədiyi bu sözlər həqiqətdir.(2)

Geniş şöhrət qazanan bu görkəmli sənətkarın adı yalnız bizim ölkədə deyil, həmçinin ölkəmizin hüdudlarından uzaqlara yayılmışdır. Niyazinin musiqi aləmində rolu ilk növbədə dirijorluq fəaliyyəti ilə müəyyən edilir. Lakin buna baxmayaraq özünün çoxşaxəli bəstəkarlıq yaradıcılığı ilə də milli musiqimizin inkişafında əhəmiyyətli rol oynayır.

Əsas təhlil

Niyazinin yaradıcılıq fərdiyyəti özündə yüksək dirijorluq və bəstəkarlıq istedadını uğurlu şəkildə birləşdirir. Belə ki, bəstəkarlıq yaradıcılığının xarakteri və inkişaf səviyyəsi ifaçılıq mahərtinin məzmununa və üslubuna təsir göstərir.

Qeyd etdiyimiz kimi, Niyazi ilk növbədə dirijordur. Bu incəsənət növü ən vacib ünsürləri -»eşitmək və görmək" bacarığı, alətlərin həcmi və xarakterini, kompozisiyanın əhəmiyyətini və ən əsası «xüsusi istedadı» özündə birləşdirir. Niyazi partituraya «yeni həyat verən» onun mahiyyətini aça bilən istedadlı bir dirijordur. Məhz buna görə əsərlərin ideya-emosional məzmununun açılmasında və dərindən dərk edilməsində Niyazinin şərhi fərqlənir.

O əsərlərə qeyri-adi ruh və cəlbedici ehtiras verir. Məhz buna görə əsərlər «ikinci yaranmanın» «dəyişməz hadisəsi» olurlar. Həmin təfsirlər ilk yaranmanın paklığını, musiqi incəsənətinin dahi əsərlərinin gücünü və hədsiz gözəlliyini yenidən açırlar.

Rus və xarici ölkə klassiklərinin musiqi əsərləri Niyazinin parlaq şərhinə misal ola bilər. Xüsusilə, Çaykovskinin simfonik, opera və balet partituralarının Niyazi tərəfindən şərhi parlaq təəssürat yaradır. O,şübhəsiz dahi rus bəstəkarının musiqisinin dərin və ilhamlı təfsirçisi olmuşdur.

Niyazinin dirijorluq fəaliyyəti 30-cu illərindən başlayır. Bu, tezliklə ona geniş şöhrət qazandirir. Dirijorluq fəaliyyətində şöhrət tapan Niyazi 1938-ci ildə Moskvada, Azəbaycan incəsənəti ongünlüyündə M.Maqomayevin «Nərgiz" operasını müvəffəqiyyətlə dirijorluq edir. Bir ifaçı kimi o, yüksək mədəniyyətə, geniş dünya görüşünə, güclü bir dirijor istedadına malikdir.

Niyazinin ifaçılıq yaradıcılığının əsas xətti-çoxmillətli sovet musiqi əsərlərinin təbliği idi. Niyazi, sovet musiqi yaradıcılığının bir çox əsərlərinin və demək olar ki, bütün Azərbaycan bəstəkarlarının simfonik əsərlərini, həmçinin SSRİ Dövlət Mükafatına layiq görülən ən əhəmiyyətli əsərlərin ilk təfsirçisi olmuşdur.

Artiq 40-ci illərin sonundan başlayaraq Niyazi bir sıra əsərlərə yüksək səviyyədə dirijorluq edir. Bunlardan Bizenin «Karmen» operasını, Balakirevin «İslamey», «Tamara» simfonik poemalarını, Borodinin «Bahadır» simfoniyasını, Skryabinin «Ekstaz poemasını», Ə.Abbasovun fortepiano ilə orkestr üçün konsertini, S.Hacıbəyovun "Gülşən» baletindən süütanı, F.Əmirovun «Nizami" simfoniyasını, «Şur» və «Kürd ovşarı» simfonik muğamlarını, «Sevil» operasını, Q.Qarayevin Leyli və Məcnun» simfonik poeması, «Yeddi gözəl» baletindən süitanı, «İldırımlı yollarla» baletini, «Alban rapsodiyasını», «Don Kixot» simfonik qravürlərini, A.Məlikovun «Məhəbbət əfsanəsi» baletini və s. göstərmək olar.

Q.Qarayev, C.Hacıyev və A.Məlikovun orkestr üçün yazılmış əsərlərinin məzmun dərinliyini və bədii ifadəliliyini, F.Əmirovun, S.Hacıbəyovun partituralarının parlaqlığı və rəngarəngliyini məhz Niyazi öz ifasında dinləyicilərə çatdırmışdır.

Simfonik musiqi ilə yanaşı Niyazi opera sənəti sahəsində də uzun illər çalışmışdır. Onun təfsirində ifa olunan operalar içərisində Azərbaycan musiqisinin şah əsəri Ü.Hacıbəylinin «Koroğlu» operası xüsusi yer tutur.

Azərbaycan bəstəkarlarının əsərlərinin yenidən yaranmasında ənənəvi olan ifaçılıq üsullarının ifadəli və daha dəqiq təsdiqi Niyaziyə məxsusdur. Bu da milli- orijinal Azərbaycan dirijorluq məktəbinin inkişafı və formalaşmasında Niyazinin ifaçılıq üslubunun başlıca rolundan danışmağa imkan verir.

Dirijor kimi Niyazinin konsert repertuarı olduqca genişdir. O, Bethoven, Motsart, Vaqner, Raxmaninov, Çaykovski, Rimski-Korsakov, Prokofyev, Şostakoviç, Q.Qarayev və s. bəstəkarların yaradıcılığına müraciət edirdi.

Təbiidir ki, Azərbaycan musiqisinin coşğun inkişaf etdiyi illərdə mürəkkəb ifaçılıq məsələləri meydana çıxırdı. Buna görə də təsadüfi deyildir ki, məhz həmin illər «dirijorluğun peşə deyil, incəsənət olduğunu» dərindən dərk etmiş təfsirçi Niyazi üçün gərgin iş illəri, repertuarı qətiyyətlə genişləndirmək, onun iri simfonik əsərlərlə və opera əsərləri ilə zənginləşdirmək dövrü idi. Dirijor üslub və ideya- estetik cəhətdən mürəkkəb olan tam bir sıra partituralar üzərində işləyir. Çaykovskinin IV, V və VI simfoniyalarının, «Manferd» simfoniyasının və «Romeo və Cülyetta» üvertura-fantaziyasının, Taneyevin «İoan Damaskin» kantatasının, Musorqskinin "Yalın təpədə gecə" simfonik lövhəsinin, Rimski-Korsakovun «Şəhrizad» simfonik süitasının, Bethovenin I,V,VIII simfoniyalarının, «Eqmont» və «Koriolan» üverturalarının, Şubertin «Tamamlanmamış» simfoniyasının, Listin «Prelüdlər»inin, Berliozun «Fantastik simfoniyası»nın, Vaqnerin «Riensi», «Loenqrin» və «Tangeyzer» operalarının üverturalarının rus və Qərbi Avropa bəstəkarlarının instrumental konsertlərinin dərk edilməsi və ifaçılıq baxımından başa düşülməsi prosesi gərgin əmək şəraitində keçirdi.

Öz yorulmaz ifaçılıq fəaliyyəti ilə Niyazi çoxmillətli sovet musiqi mədəniyyətinin inkişafını zənginləşdirir. Onun müxtəlif xalqlarla əlaqəsinə kömək edir. Buna onun şərhində verilmiş sovet bəstəkarlarının yeni əsərləri Çexoslavakiya, Macarıstan, Ruminiya, Çin Xalq Respublikası, Türkiyə, Almaniyadakı konsetrtləri Fransada və Çexoslovakiyada keçirilən beynəlxlaq musiqi festivallarında çıxışları, Parisin «Qrand Opera» teatrının və Londonun «Kovent- Qarden» teatrının səhnəsində, S.M.Kirov adına Leninqrad Akademik Opera və Balet teatrının tamaşalarına dirijorluq, Ankara və İstanbul teatr səhnələrində qoyulmuş Çaykovskinin «Yevgeni Onegin» və «Qaratoxmaq qadın» operaları buna misaldır.Sovet və xarici musiqi incəsənətinin görkəmli xadimləri Niyazinin dirijorluq incəsənəti haqqında bir çox fikirlər söyləmişlər (1).

«Niyazi musiqi formasının quruluşunu çox həssaslıqla hiss edir və partituralar onun tərəfindən nöqsansız və ilhamla oxunur». (D,Şostakoviç). "Bir bəstəkar kimi öz böyük əsərlərimin Niyazinin idarəsi ilə ifasını mən tez-tez eşidirdim və onun orkestr ilə işini müşahidə edirdim". Mübaliğəsiz qeyd edə bilərəm ki, əsərlərimin bundan yaxşı ifasını mən arzu edə bilməzdim. (Q.Qarayev) «Niyazi -odlu temperamentə, qeyri adi, dərin və aydın düşüncəyə malik parlaq təfsirçidir. (B.Tərcan-Türkiyə) «Niyazinin incəsənəti ən yüksək qiymətə layiqdir. Onun qeyri-adi əlləri böyük iradəsi və güclü xarakteri var». (K.Tsekki İtaliya)

Dirijorluq fəaliyyəti ilə yanaşı Niyazinin bəstəkarlıq yaradıclığı da yüksək sənətkarlığı ilə fərqlənir, onun bəstəkarlıq yaradıcılığı müxtəlif janrları əhatə edir, opera balet, simfonik musiqi, vokal instrumental əsərlər.

Müxtəlif janrları əhatə edən bəstəkarın yaradıclığı son dərəcə rəngarəngdir. Onun əsərlərinin musiqi üslubu özünün orijinallığı ilə fərqlənir. Bu cəhət onunla izah olunur ki, xalq musiqisinin dərin bilicisi olan bəstəkar öz yaradıcılığında milli folklorun bütün səciyyəvi xüsusiyyətlərini, müasir musiqi intonasiyalarının tələbləri baxımından özünə məxsus bir şəkildə həll edə bilmişdir.

Niyazi Azərbaycan Bəstəkarlıq məktəbənin ilk nümayəndələrindən biridir ki, simfonik janra müraciət etmiş və Azərbaycan simfonizminin inkişafında əsas rol oynamış bir sıra əsərlər yaratmışdır.

Niyazinin qələminə məxsus olan musiqili səhnə əsərləri onun cəsarətli yaradıclıq axtarışlarının məhsuludur.

Bəstəkarın məşhur vokal əsərlərinin xarakterik cizgiləri, nikbinlik, vətəndaşlıq və lirizmdir. Niyazi eyni zamanda bir çox Azərbaycan Xalq mahnılarının və rəqs melodiyalarının işləmələrinin də müəlifidir.

Niyazi Azərbaycan kino musiqisinin və Azərbaycan dram tamaşalarına yazılmış musiqinin əsasını qoyanlardan biri olmuşdur. Görkəmli sənətkarın yorulmaz qayğısı nəticəsində 1938-ci ildə yaranmış respublikanın əməkdar kollektivi Azərbaycan Dövlət Simfonik orkestridir. Bu orkestrə Azərbaycan professional musiqisinin və bəstəkarlıq məktəbinin banisi olan Ü.Hacıbəylinin adı verilmişdir. Niyazi ilə çoxillik münasibətdə olan bu orkestr professional sənətkarlıq səviyyəsinə qalxmış və Azərbaycan simfonizminin, sözün əsl mənasında «yaradıcılıq laboratoriyasına" çevrilmişdir. Azərbaycan musiqi mədəniyyətinin inkişafında Niyazinin yaradıcıtəşkilatçılıq və musiqi ictimai fəaliyyətinin əhəmiyyəti xalqımız tərəfindən yüksək qiymətləndirilir.

**Nəticə**

Maestro Niyazi ömrünün sonuna kimi Azərbaycan bəstəkarlarının əsərlərini bir sıra xarici ölkələrdə dirijorluq etmişdir. Çoxillik konsert və yaradılcılıq fəaliyyətinə görə maestro Niyazi «Bella Bartok" adına medala, «Karl Marksştadt" şəhərinin medalına, Cavahirləl Nehru adına Beynəlxalq mükafata layiq görülmüşdür. Niyazi eyni zamanda Sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq artisti adına, Azərbaycan və SSRİ dövlət mükafatlarına layiq görülmüş, böyük bir bəstəkar və dahi dirijor olmuşdur (3).

## ƏDƏBİYYAT

1. Abdullayeva Z. Azərbaycan musiqi ədəbiyyatı. Bakı: Adiloğlu, 2009.
2. Kərimov S.. Niyazi. Bakı: Yazıçı, 1982.
3. Керимов С. Ниязи. Баку: Издательство ишыг, 1978.

***AMK-nın "Fortepiano" kafedrasının baş müəllimi***

**Irada Karimova**

**MAESTRO NIYAZI**

The article comments on the conducting activities of Niyazi, one of the outstanding figures who brought world fame to Azerbaijani music of the 20th century, a talented composer, conductor, and public figure.

The name of this outstanding artist, who has gained wide fame, has spread not only in our country, but also far beyond the borders of our country. Niyazi's role in the world of music plays an important role in the development of our national music, primarily through his conducting activities, but also through his versatile compositional creativity.

**Keywords:** *Interpreter, conductor, symphonic music*

**Ирадə Керимова**

**МАЭСТРО НИЯЗИ**

В статье комментируется дирижерская деятельность Ниязи, одного из выдающихся деятелей, принесших мировую известность азербайджанской музыке XX века, талантливого композитора, дирижёра и общественного деятеля.

Имя этого выдающегося художника, получившего широкую известность, распространилось не только в нашей стране, но и далеко за ее пределами. Роль Ниязи в мире музыки играет важную роль в развитии нашей национальной музыки, прежде всего благодаря его дирижерской деятельности, но и благодаря его разностороннему композиторскому творчеству.

**Ключевые слова:** *переводчик, дирижер, симфоническая музыка.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 22.10.2024**
**Son daxilolma tarixi:12.11.2024**